Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi yanında
Antiinhisar və İstehlak Bazarına
Nəzarət Dövlət Xidməti

# BMT-nin ƏRZAQ və KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ (FAO) 2022-ci ilin SENTYABR AYINDA AÇIQLADIĞI ƏRZAQ QİYMƏTLƏRİNİN İNDEKSİ

# ÜMUMİ MƏLUMAT

- FAO Ərzaq Qiymətləri İndeksi (FFPI) 2022-ci ilin avqust ayında orta hesabla **138.0-a** bərabər olmuşdur. Bununla da ərzaq qiymətləri indeksi iyul ayı ilə müqayisədə **1.9% azalıb** və ötən ilin müvafiq dövrü ilə müqayisədə isə **7.9% artıb**.
- Son qiymət azalmasının əsas səbəbləri ***bütün indekslər üzrə*** azalmaların olmasıdır.




*Qeyd*: 2022-ci ilin yanvar - avqust ayları üzrə

# TAXIL MƏHSULLARI (DƏNLİ BİTKİLƏR)



- Taxıl məhsullarının Qiymət İndeksi avqust ayında orta hesabla **145.2 bənd** təşkil edib:
  - ✓ 2022-ci il iyul ayına nisbətən **2.0 bənd (1.4%) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **14.8 bənd (11.4%) artıb.**
- Taxıl məhsullarının qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Şimal yarımkürəsində tədarük (yığım) mövsümünün olması;
  - ✓ Kanada, Amerika Birləşmiş Ştatları və Rusiya Federasiyasında istehsal mühitinin yaxşılaşması;
  - ✓ Qara Dənizdə limanların fəaliyyətə başlaması;
  - ✓ Sorqo və arpa qiymətlərinin azalması.



# BİTKİ YAĞLARI



- Bitki yağı Qiymətləri İndeksi avqust ayında orta hesabla **163.3 bənd** təşkil edib:
  - ✓ iyul ayına nisbətən **5.5 bənd (3.3 %) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **2.6 bənd (1.5%) azalıb.**
- Bitki yağları qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ İndoneziyadan palma yağı ixracının artması;
  - ✓ Ukraynada dəniz limanların fəaliyyətini bərpası nəticəsində günəbaxan yağının qiymətinin azalması;
  - ✓ Kolza yağı qiymətinin azalması.



# SÜD MƏHSULLARI



- Süd məhsullarının Qiymətləri İndeksi avqust ayında orta hesabla **143.5 bənd** təşkil edib:
  - ✓ iyul ayı ilə müqayisədə **3.0 bənd (2.0%) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **27.3 bənd (23.5%) artıb.**

- Süd məhsullarının qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Süd tozu və kərə yağına olan tələbin azalması;
  - ✓ Yeni Zelandiyadan süd təklifinin artması.



# ƏT MƏHSULLARI

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti

- Ət Qiyməti İndeksi avqust ayında orta hesabla **122.7 bənd** təşkil edib:
  - ✓ iyul ayına nisbətən **1.8 bənd (1.5%) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **9.3 bənd (8.2%) artıb.**

- Ət məhsulları üzrə qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Artan mal əti tədarükü fonunda mal əti qiymətinin azalması;
  - ✓ Quş əti təklifinin artması.



# ŞƏKƏR

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti

- Şəkər Qiymət İndeksi avqust ayında orta hesabla **110.4 bənd** təşkil edib:
  - iyul ayına nisbətən **2.4 bənd (2.1 faiz) azalıb;**
  - ötən ilin müvafiq dövrü ilə müqayisədə **10.1 bənd (8.4%) azalıb.**
- Şəkər məhsulları üzrə qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - Hindistandan şəkər ixracının artması.
- Şəkər məhsulları üzrə qiymət indeksini təzyiq altında saxlayan amillər:
  - Braziliyida etanol qiymətlərinin artması;
  - Braziliyida şəkər istehsalının az olması;
  - Braziliya realının ABŞ dollarına qarşı möhkəmlənməsi.

